# Şəhid və qazilərin tanıdılması istiqamətində tədbirlər həyata keçirilir



**İkinci Qarabağ müharibəsində rəşadətli Azərbaycan Ordusunun tarixi zəfəri ölkə əhalisinin bütün təbəqələri, xüsusilə yeniyetmə və gənclər arasında vətənpərvərlik hissinin daha da güclənməsinə səbəb olmuşdur. Son günlər bir çox dövlət qurumları və ictimai təşkilatlar tərəfindən Vətən yolunda canlarını qurban vermiş şəhidlərimizin, həmçinin bu müqəddəs yolda qazi olmuş həmvətənlərimizin tanıdılması ilə bağlı bir çox maraqlı tədbirlər həyata keçirilir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Sabirabad Regional Mədəniyyət İdarəsinin rəisi Əhməd Ramazanov bu istiqamətdə görülən işlər barədə söhbət açarkən demişdir:**



--Fəxrlə bildirmək istəyirəm ki, 44 günlük Vətən müharibəsində xalqımız 30 illik Qarabağ həsrətinə qovuşaraq, həqiqətən tarixi qələbə qazanmışdır. Bu möhtəşəm uğur müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik liderliyi və yüksək qətiyyəti, rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı, bütün xalqımızın sarsılmaz birliyi sayəsində mümkün olmuşdur.

Azərbaycan xalqının öz torpaqlarının azad olunması uğrunda apardığı şərəfli və gərgin mübarizə artıq başa çatmışdır. Vətən müharibəsində əldə olunan möhtəşəm qələbə qəlbimizə, ruhumuza sonsuz sevinc və qürur hissləri bəxş etmişdir. Azərbaycan xalqı haqlı olaraq öz igid, qorxubilməz oğulları ilə fəxr edir və uzun illər bundan sonra da fəxr edəcək. İkinci Qarabağ müharibəsinin qəhrəmanları və qazilərini, onların hər birinin nümayiş etdirdiyi qeyri-adi şücaətləri cəmiyyətə yaxından tanıtmaq müqəddəs vəzifədir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin rəhbərliyi, onun mərkəzi və yerli qurumları son günlər ərzində şəhid və qazilərimizin tanıdılması məqsədi ilə geniş fəaliyyət proqramı hazırlayaraq, onun icrasını uğurla həyata keçirməyə başlamışdır. Sabirabad Regional Mədəniyyət İdarəsinin rəhbərliyi və bütün əməkdaşları bu sahədə öz üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışırlar.

Əvvəlcə, onu qeyd etmək istəyirəm ki, Vətən müharibəsi şəhidləri və qazilərinin tanıdılması məqsədilə regional idarənin tərkibində olan idarə və müəssisələrin əməkdaşlarından ibarət təşəbbüs qrupları yaradılmışdır. Həmin qrupların üzvləri Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızın ailələrini ziyarət edir, şəhidlərimizin doğmalarının köməyilə onların şərəfli ömür yolları barədə məlumatlar toplayırlar. Hər bir şəhid haqqında toplanan ətraflı məlumatlar əsasında qısametrajlı filmlər hazırlanır.

Bu videoçarxlar idarənin rəsmi facebook səhifəsində və digər internet resurslarında yerləşdirilir. Bununla da, ictimaiyyətin şəhidlərimiz haqqında kifayət qədər dolğun məlumatlandırılması təmin olunur.

Fəxrlə bildirmək istəyirəm ki, şəhid və qazilərimizn tanıdılması ilə bağlı görülən işlər əhali tərəfindən dərin maraq və razılıq hissilə qarşılanır. Şəhid və qazilərin doğmaları bu barədə söz düşəndə xalqımızın sevimli lideri Prezident İlham Əliyevin Vətən müharibəsi iştirakçılarına göstərdiyi diqqət və qayğıdan məmnun qaldıqlarını bildirməyi özlərinə borc bilirlər.

Yeri gəlmişkən, ötən ilin son günü axşamı hamı kimi mən də möhtərəm Prezidentimizin Azərbaycan xalqına Yeni il müraciətini böyük maraqla dinlədim. Bu olduqca parlaq və dərin məzmunlu çıxışda dövlətimizin başçısı 2020-ci ilə ölkəmizdə əldə olunan uğurlardan, xüsusilə Vətən müharibəsində xalqımızın parlaq qələbəsindən geniş bəhs etdi. Cənab İlham Əliyev Qarabağda möhtəşəm Qələbəmizin əldə olunmasında xalq-iqtidar birliyinin əhəmiyyətini bir daha vurğulayaraq dedi: "Müharibə arxada qaldı. Müharibə bizim gücümüzü göstərdi, əyilməz iradəmizi göstərdi, birliyimizi göstərdi, müharibə rəmzinə, qələbə rəmzinə çevrilən dəmir yumruq öz gücünü göstərdi. Bu, həm birlikdir, həm gücdür. Cəmiyyətimizdə birlik də var, ölkəmizin gücü də var və həmişə olacaq. Əgər kimsə Ermənistanda bu gün revanş hissi ilə yaşayırsa, böyük səhv edir. O 44 günlük müharibəni onlar heç vaxt unutmasınlar. Bundan sonra əgər kimsə Azərbaycan xalqını təhqir etməyə çalışsa, elə dərsini alacaq ki, o 44 günlük müharibə onun yanında yalan olacaq".

Bəli, ötən il Azərbaycan üçün həqiqətən çox əlamətdar bir il olmuşdur. Xalqımız 30 illik Qarabağ arzusuna qovuşub. Vətən müharibəsində elə bir böyük zəfər qazanılıb ki, illər, qərinələr, əsrlər boyu gələcək nəsillər bununla fəxr edəcək.

Məlum olduğu kimi, ötən il dekabrın 10-da Bakının Azadlıq prospektində xalqımızın ikinci Qarabağ müharibəsində parlaq qələbəsinə həsr olunmuş möhtəşəm Zəfər paradı keçirildi. Azərbaycan və Türkiyə prezidentlərinin tədbirdəki parlaq, dərin məzmunlu çıxışları dinlədikcə qəlbim sevincimdən köksümə sığmırdı. Düşündüm ki, Azərbaycan və Türkiyə xalqlarının dostluğu və qardaşlığı əbədidir və heç bir qüvvə bu birliyi sarsıda bilməz. Biz bir yerdə olanda daha güclü və qüdrətli oluruq.

Bir məqamı da xüsusi vurğulamaq istərdim. Ötən ilin sonlarında Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarına səfəri də yaxşı yadımdadır. Televiziyadan nümayiş etdirilən kadrlardan bəlli oldu ki, mənfur düşmən Qarabağın digər bölgələrində olduğu kimi, Qubadlı və Zəngilandakı demək olar ki, bütün evləri, bağçaları, məktəbləri, mədəniyyət abidələrini dağıtmışdır, ağacları qırmışdır, meşələri yandırmışdır. Dünya bütün bunları görüb şoka düşür. Bəli, erməni vandalizmi, barbarlığı sərhəd tanımır.

Ermənilərdən tam fərqli olaraq, Azərbaycan xalqı qurub-yaradan xalqdır. Zərrə qədər şübhə yoxdur ki, biz o doğma əraziləri, kənd, qəsəbə və şəhərləri yenidən dirçəldəcəyik, laləzara, gülüstana çevirəcəyik. Qarabağın əsl sahibləri olan qaçqın və məcburi köçkünlərimiz doğma yurdlarına qayıdacaqlar. Həyat yenidən normal məcraya düşəcək. Yeni ailələr qurulacaq, həyətbacalarda körpə səsləri eşidiləcək.

Gözəl, bənzərsiz Qarabağ qədim muğam və mədəniyyət məkanıdır. Əminəm ki, dövlətimizin dəstəyi ilə milli musiqimiz, mədəniyyətimiz daha da inkişaf edəcək.

***Söhbəti qələmə aldı:***
***Səməd HÜSEYNOĞLU, "Xalq qəzeti"***